

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 218 (21.370)

6 noyabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Gürcüstana rəsmi səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 5-də Gürcüstan Prezidentinin iqamətgahında rəsmi qarşılanma mərasimi olub.

Noyabrın 5-də Tbilisidə rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin təkbətək görüşü olub.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin geniş tərkibdə görüşü olub.

Noyabrın 5-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Prezident İlham Əliyev və Prezident Giorgi Marqvelaşvili Azərbaycan Respublikası ilə Gürcüstan arasında Birgə Bəyannamə imzalayıblar.

Noyabrın 5-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin adından rəsmi nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 3 noyabr tarixli sərəncamları ilə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyi münasibətilə, Azərbaycan elminin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmiş, bir qrup elm xadiminə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir. Təltif olunanlar və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülənlər arasında Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşları da vardır.

**Səfərli Hacıfəxrəddin Yəhya oğlu**
"Əməkdar elm xadimi" fəxri adı,

**Quliyev Varis Muxtər oğlu**
"Tərəqqi" medalı ilə təltif edilmiş,

**Rzayev Bayram Zülfüqar oğluna**
Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

## Naxçıvan Muxtar Respublikasının Soyuq döyüş bölgəsində müasir əsgəri yaşayış kompleksi istifadəyə verilmişdir

Xalqın əmin-amanlıqda yaşaması, torpaqların etibarlı müdafiə olunması üçün güclü ordunun olması vacib şərtdir. Bu gün müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu vardır. Silahlı Qüvvələrimizin maddi-texniki təminatı ilbəil təkmilləşdirilir, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılır. Dövlətin diqqət və qayğısını daim öz üzərində hiss edən əsgər və zabitlər sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar.



Son illər muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Təmas xətti boyu mövqelərini gücləndirən Əlahiddə Ümumqoşun Ordunun ucqar və çətin dağlıq şəraitində yerləşən hissə və bölmələrində möhkəm müdafiə potensialı yaradılmışdır. Uca dağ silsilələrinin əhatəsində yerləşən Soyuq bölgəsi də muxtar respublikanın əsas müdafiə istehkamına və alınmaz qalasına çevrilmişdir.

Noyabrın 5-də Soyuq bölgəsində yerləşən hərbi hissə üçün yeni əsgəri yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Soyuq bölgəsinə gəlmiş, əsgəri yaşayış kompleksinin açılışında iştirak etmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri əsgərləri salamlamışdır.





Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək demişdir ki, bu gün Naxçıvanın etibarlı və dayanıqlı müdafiəsi üçün bütün zəruri tədbirlər görülür. Sərhədlərimizin toxunulmazlığını, torpaqlarımızın müdafiəsini təşkil edən qoşun birləşmələri müasir silah və texnikalarla təchiz edilmişdir. Bu gün artıq Əlahiddə Ümumqoşun Ordu həm peşəkarlıq, həm də maddi-texniki bazasının üstünlüyü baxımından düşmənə göz dağıdır. Muxtar respublika ərazisindəki digər hərbi obyektlər kimi ucqar dağ silsiləsində yerləşən Soyuq bölgəsində də əsgər və zabitlərin məişət şəraiti yaxşılaşdırılmışdır. Çətin dağlıq şəraitində müasir əsgəri yaşayış kompleksinin istifadəyə verilməsi xalq-ordu birliyinin, əsgər və zabitlərə göstərilən qayğının daha bir ifadəsidir. Kərəm Mustafayev yaradılan şəraitə görə şəxsi heyət adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Soyuq bölgəsində əsgəri yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik edərək demişdir: Bu gün ölkəmizdə bütün sahələr inkişaf etdirilir. Ordu quruculuğu sahəsində görülən işlər isə bu tədbirlər sırasında mühüm yer tutur. Çünki güclü və qüdrətli ordu ölkəmizin gələcəyinə xidmət edir. Bu gün dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən Soyuq bölgəsində xidmət keçən əsgər və zabitlərimiz vətən torpağımızı, sərhədlərimizi etibarlı qoruyurlar. Ona görə ki, sərhədlərin etibarlı müdafiəsi vətənin qorunması, sərhəddə sabitlik ölkədə sabitlik deməkdir. Sabitlik isə hər bir ölkədə inkişafın əsasını təşkil edir.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil ordu quruculuğu strategiyası bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Nəticədə, ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır. Hər il yeni əsgəri yaşayış kompleksləri istifadəyə verilir, Silahlı Qüvvələrimiz ən müasir silah-sursatla təmin olunur, Azərbaycan ordusunun döyüş qabiliyyəti artırılır. Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər dövlət müstəqilliyimizin qorunması ilə yanaşı, həm də işğal altındakı torpaqlarımızın azad edilməsinə xidmət edir. Artıq muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələr sərhədlərimizi etibarlı qorumaqla yanaşı, həm də işğal altındakı torpaqlarımızı azad etməyə qadirdilər.

Qeyd olunmuşdur ki, muxtar respublikada ordu quruculuğu uzun yol keçmişdir. Ümummilli liderimiz Heydər Əliyev 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı qərar qəbul etmiş, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən Müdafiə Komitəsi yaradılmışdı. 1992-ci ildə isə muxtar respublika ərazisində əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmişdir. Sonra briqada inkişaf edərək ordu korpusuna çevrilmiş və bunun da əsasında bölgədə güclü ordu olan Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Bu gün qarşı tərəf də bilir ki, Əlahiddə Ümumqoşun Ordu istənilən döyüş tapşırığını yerinə

Ardı 2-ci səhifədə





yetirməyə qadirdir.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin əsgər və zabitlər qarşısında mühüm vəzifələr qoyduğunu bildirən Ali Məclisin Sədri demişdir: Göstərilən bu qayğı və diqqət əsgər və zabitlərin üzərinə mühüm vəzifələr qoyur. Şəxsi heyət xidməti nümunəvi təşkil etməli, müasir silah və texnikalardan istifadə qaydalarını öyrənməli, nizam-intizama əməl olunmalı, əsgər və zabitlərin döyüş qabiliyyəti daim artırılmalıdır.






Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırmış, xidməti fəaliyyətlərində fərqləndiklərinə görə şəxsi heyətə təşəkkür elan etmişdir.

Hərbi hissənin zabiti Çingiz Hüseynov minnətdarlıq edərək demişdir ki, muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər istər hakim yüksəkliklərdə, istərsə də daimi yaşayış məntəqələrinə yaxın ərazilərdə eyni səviyyədə aparılır. Müasir yaşayış və xidmət şəraiti hər bir əsgər və zabitin döyüş ruhunu daha da artırır. Bu gün düşmənlə üzbəüz, ucqar dağlıq şəraitdə müasir xidmət şəraitin yaradılması bunu bir daha təsdiq edir. Şəxsi heyət bu qayğı qarşısında daha da ruhlanır. Torpaqlarımız ayıq-sayıq müdafiə olunur.

Əsgər Əli Razimoğlu demişdir ki, müstəqil Azərbaycan ordusunda xidmət etmək şərəfdir. Çünki ölkəmiz günü-gündən inkişaf etdikcə ordumuz da qüdrətlənir. Bu gün Soyuq bölgəsinin timsalında hissə və birləşmələrdə yaradılan müasir xidmət və məişət şəraiti əsgərlərin döyüş ruhunu və əzmkarlığını artırır. Digər tərəfdən müasir texnika və silahlarla təminat qüdrətli Azərbaycan ordusunda xidmət keçən hər bir əsgərdə yüksək döyüş ruhu yaradır. Bu gün ərazi bütövlüyümüzü təmin etmək, işğal altında olan torpaqlarımızı azad etmək biz gənclərin öhdəsinə düşür. Ona görə də müasir silah və texnikanı dərindən mənimsəyir, döyüş hazırlığımızı yüksəldirik. Mövqelərimizdə daim ayıq-sayıq dayanmışıq.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, əsgəri yaşayış kompleksində yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, binada əsgər və zabitlər üçün yataq otaqları, məişət və ideoloji otaqlar, tibb otağı, mətbəx, yeməkxana, eləcə də komandir heyəti üçün xidməti otaqlar vardır. Yataqxanada əsgərlər üçün müasir sosial-məişət şəraiti yaradılmışdır. Yataq otaqları keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla təchiz olunmuşdur. Hərbi hissənin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan bina telefon, daimi işıq və istilik sistemi ilə təchiz olunmuşdur. Burada əsgərlərin asudə vaxtlarının təşkili üçün də hər cür şərait vardır. İdeoloji otaqda ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən məlumatların, o cümlədən hərbi nizamnamənin tələblərinin yazıldığı stendlər asılmış, qazet və jurnallar, hərbi və bədii ədəbiyyatlar qoyulmuşdur.

Binanın foyesində foto-guşə və divar qəzeti hazırlanmış, televizor qoyulmuşdur. Hərbi hissənin anbarlarında kifayət qədər




ərzaq və geyim ehtiyatı vardır. Binanın ətrafı da abadlaşdırılmış, su və elektrik xətləri çəkilmişdir.

Ali Məclisin Sədri şəxsi heyətlə nahar etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Hərbi hissənin əhatə etdiyi postlarda olan Ali Məclisin Sədri əsgər və zabitlərlə görüşmüş, xidmətin təşkili ilə maraqlanmışdır.

Əsgərləri salamlayan Ali Məclisin Sədri demişdir: Çətin dağlıq şəraitində yerləşən Soyuq bölgəsi muxtar respublikanın əsas müdafiə istehkamlarından biridir. Hələ 1918-1920-ci illərdə bu ərazilərdə torpaqlarımızın müdafiəsi təşkil olunmuş, könüllülərdən ibarət dəstələr postlar yaradaraq sərhədlərimizi qorumuşlar. Ötən əsrin 90-cı illərindən sonra isə burada müstəqil ölkəmizin əsgər və zabitlərinin xidməti təşkil olunmuşdur. Lakin o zaman bugünkü şərait yox idi. Əsgərlər öz xidməti fəaliyyətlərini çətin şəraitdə həyata keçirirdilər. Bu gün isə ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Soyuq bölgəsində də nümunəvi xidmət şəraitinin yaradılmasına imkan vermişdir. Bu işlər gələcəkdə də davam etdiriləcəkdir. Çünki hərbi xidmətin düzgün təşkili əsgər və zabitlər üçün yaradılan rahat şəraitdən başlayır. Bu sahədə həyata keçirilən tədbirlər sırasında xalq-ordu birliyi mühüm yer tutur. Muxtar respublika sakinləri əsgərlərlə həmrəylik nümayiş etdirir. Bütün bunlar da şəxsi heyət qarşısında mühüm vəzifələr qoyur. Əsgər və zabitlər dostluq və birlik şəraitində xidmət etməli, torpaqlarımız etibarlı müdafiə olunmalıdır.

Əsgərlərdən İlkin Musayev, Nahid Məmmədov, Turan Yusifli, Toğrul Məmmədov, Mühit Əliyev və Babək Fətullazadə minnətdarlıq edərək demişlər ki, Soyuq dağlarının uca zirvəsində vətənimizin müdafiəsində dayanmaq ikiqat qürur və şərəfdir. Azərbaycan əsgərinə göstərilən qayğını, əsgər adına verilən yüksək qiyməti bu gün Soyuq bölgəsinin timsalında görmək mümkündür. Yüksək dağlıq şəraitində xidmət etsək də, heç bir çətinlik çəkmirik. Burada şəxsi heyət üçün hər cür şərait vardır. Hər il Ali Məclis Sədrinin Soyuq bölgəsinə gələrək əsgər və zabitlərlə görüşməsi şəxsi heyətin böyük sevincinə səbəb olur. Bu görüşlər çətin iqlim və relyef şəraitində xidmət edən əsgərlərdə mübarizlik, qəhrəmanlıq hisslərini alovlandırır, şəxsi heyət arasındakı birlik və bərabərliyi daha da möhkəmləndirir. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğını minnətdarlıq hissi ilə qarşılayır, etimadı doğrultmağı ən yüksək amalımız kimi qəbul edir, hər bir döyüş əmrinə hazır olduğumuzu bildiririk.

Sonra Ali Məclisin Sədri müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti ilə tanış olmuşdur. Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə müdafiənin ön xəttində xidmətin təşkili haqqında məlumat vermişdir.

Bildirilmişdir ki, hakim yüksəkliklərdə mühəndis təminatının məqsədyönlü şəkildə təşkil olunması Silahlı Qüvvələrə müdafiə və hücum əməliyyatları zamanı hərbi üstünlük qazandırır. Buna görə də muxtar respublikanın bu cür dağlıq ərazilərində sərhədlərin müdafiəsinin təşkilinə xüsusi diqqət yetirilir. Ərazidə müşahidə məntəqələri yaradılmış, postlarda müasir silah və müdafiə qurğuları yerləşdirilmişdir. Müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılmışdır. Postlar arasında dayanıqlı rabitə əlaqəsi və rahat gediş-gəliş imkanı vardır. Bu da xidmətin qarşılıqlı əlaqə zəminində təşkili baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd olunmuşdur ki, təmas xəttində şəxsi heyətin döyüş hazırlığını daim yüksək səviyyədə saxlamaq vacib şərtdir. Xüsusilə dağlıq ərazilərin təbiətini və relyef xüsusiyyətlərini bilmək döyüş tapşırıqlarının icrasını dəqiq yerinə yetirməyə kömək edir. Təlimlər zamanı silahların təyinatı, onların taktiki-texniki xassələri və onlardan istifadə qaydaları ilə yanaşı, mürəkkəb dağlıq şəraitdə döyüş əməliyyatlarını düzgün aparmaq üçün lazımi təlimatlar da verilir. Bunun üçün əsgərlərə, ilk növbədə, yüksək dözümlülük, iqlim xüsusiyyətlərini bilmək və uyğunlaşmaq, təhlükəsizlik qaydalarına əməl etmək kimi mühüm amillər öyrədilir.

Ali Məclisin Sədri Soyuq döyüş bölgəsində müdafiənin təşkili sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirmiş, ərazidə müdafiə mövqeyinin möhkəmləndirilməsi və şəxsi heyətin xidməti döyüş fəaliyyətinin yüksəldilməsi barədə tapşırıqlar vermişdir.

Gətirilmiş müxtəlif ərzaq məhsulları, yun corab və şərflər anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

İstehsal müəssisələri

# Sahibkarlığa göstərilən dövlət dəstəyi öz bəhrələrini verir

***Sahibkarlıq sərbəst bazar iqtisadiyyatının, işgüzar biznes mühitinin əsas atributlarından biridir. Artan tələbatların ödənilməsi üçün hər cür maddi nemət və xidmətlərin istehsalı sahibkarın əsas qayğılarındandır. Qurduğu biznes sahəsində yaratdığı yeni iş yerləri ilə çox sayda insanın gəlir əldə etməsini təmin edən sahibkarların müəyyən məqamlarda ciddi qayğıya ehtiyacı vardır. Çünki onlar da bu cəmiyyətin bir üzvü olmaqla bərabər, həm də qurduqları biznesə görə işgüzar, sosial və ekoloji məsuliyyət daşıyırlar.***

Hazırda sərbəst bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq cəmiyyətimizdə sahibkara, onun riskli əməyinə verilən qiymət əvvəlki təsəvvürlərdən tamamilə fərqli bir mahiyyət qazanmışdır. Biznesin müxtəlif sahələrində öz gücünü sınayıb tələbatların ödənilməsi üçün məhsul və xidmətlərlə bazara çıxan müxtəlif sahibkarlar üçün keçilən yol həmişə hamar olmamışdır. Lakin bazara məxsus risklər, dünya valyuta kurslarındakı dalğalanmalar, habelə biznesdən anlayışı olmayan bəzi səriştəsiz sahibkarların və sahibkarlığın cəmiyyətə faydalarını hələ də qavraya bilməyən bəzi kiçik məmurların lüzumsuz əngəlləri bu vacib sahənin inkişafına mane ola bilməmiş, ölkəmiz çox qısa bir dövrdə bazar iqtisadiyyatı yolu ilə mühüm iqtisadi potensial əldə etmişdir.

Naxçıvan Muxtar Respublikasında bu gün özəl bölmə iqtisadiyyatın 87 faizinə sahibdir. Naxçıvanda sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, hazırda muxtar respublikadakı istehsal müəssisələrində 119 növdə, 507 çeşiddə ərzaq, 238 növdə, 599 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 357 növdə, 1106 çeşiddə məhsul istehsal olunur. Təkcə cari ilin əvvəlindən muxtar respublikada 30 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır. Muxtar respublikada sahibkarlığa dövlət maliyyə dəstəyi gücləndirilmiş, İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Fondu tərəfindən indiyə qədər 1196 layihənin maliyyələşdirilməsinə 117 milyon manatdan çox vəsait yönəldilmişdir. Bu istiqamətdə cari ilin əvvəlindən ayrılan güzəştli kreditlərin həcmi isə 9 milyon 758 min manat olmuşdur. Bu rəqəmlər, ümumilikdə, muxtar respublikamızda sahibkarlığa göstərilən dövlət qayğısının miqyasını əks etdirir.





Lakin bununla yanaşı, biznes sərbəst bir fəaliyyətdir və onun uğur qazanmasında sahibkarın öz təşəbbüskarlıq məharəti, səbirliliyi və real iqtisadi vəziyyətə əsaslanan təhlil qabiliyyəti də vacibdir. Başqa sözlə, sahibkar öz müəssisəsinin ən yaxşı işçisi kimi işə doğma münasibəti ilə fərqlənməlidir. Təcrübə göstərir ki, məhz belə sahibkarlar qurduqları kiçik biznesi tədricən böyüdərək təkcə özlərinə deyil, onlardan yenilik gözləyən insanlara da faydalı olurlar. Muxtar respublikamızda uğurla fəaliyyət göstərən belə sahibkarlıq subyektlərindən biri də “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

“Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi məhsullarla, demək olar ki, hər birimiz tanışıq. Müxtəlif əmtəə nişanı adı altında bu müəssisənin bazara çıxardığı yüksəkkeyfiyyətli ərzaq məhsulları müştərilər tərəfindən həvəslə alınır.

Dünyaya tam inteqrasiya olunmuş bir ölkədə yaşayırıq. Daxildə istehsal etdiyimiz məhsullar keyfiyyət standartlarına və bazar qiymətinə uyğun olmazsa, onları istər-istəməz idxal məhsulları əvəz edəcəkdir. Valyuta vəsaitlərimizin çox qiymətli olduğu bir dövrdə bu, şübhəsiz, heç kimin ürəyincə olmaz. Ona görə də “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti kimi daxili bazarı müəyyən ərzaq məhsulları ilə təmin etməyi bacaran və ixracda yer tutan biznes qurumlarımızın fəaliyyətinə göstərilən dövlət qayğısı təsadüfi deyildir.

Bəs nədir işin sirri? Şübhəsiz, hər bir biznes vahidinin bir kommersiya sirri vardır və bunları paylaşmaq biznesin sərt qanunlarına uyğun deyildir. “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi və direktoru Teymur Rzayevə bu mövzuda bir yazı hazırlamaq fikrim olduğunu bildirəndə söhbət üçün razılıq verdi və görüş vaxtı təyin etdik. Qeyd edək ki, Teymur Rzayev ali təhsilli mühəndis olsa da, o, sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı özünə peşə seçdiyini və bu peşəni sevdiyini vurğulayır. Söhbətimizə başladıqda o, təqribən, 20 il əvvəl, 1995-ci ildən ticarətlə biznesə başladığını bildirdi. Dedi ki, 20 il qısa bir dövr olsa da, ölkəmizdə, eləcə də muxtar respublikamızda biznes sahəsində çox şeylər dəyişmişdir. O dövrdə istehlak bazarında böyük boşluqlar olduğundan ticarətlə məşğul olanlar yaxşı mənfəət əldə edirdilər. Ancaq biz çox qısa bir müddətdə istehsala başlamağa qərar verdik və 1998-ci ilin avqust ayında qənd istehsalı üzrə ilk istehsal müəssisəsini qurduq. Sonrakı illərdə ölkədə aparılan uğurlu iqtisadi siyasət sahibkarların da inkişafına təkan verdi. Muxtar respublikamızda yaradılmış əlverişli biznes mühitindən faydalanaraq biznes sferamızı genişləndirmək məqsədilə 2003-cü ildə Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirilməsində iştirak etdik. Neçə illər fəaliyyətsiz qalan və bütün avadanlıqları sıradan çıxan müəssisəni yenidən qurduq. Müəssisədə əvvəlcə əsaslı təmir işləri görülərək yenidənqurma işləri başa çatdırıldı. İkinci mərhələdə isə müasir standartlara cavab verən, yüksəkkeyfiyyətli məhsul istehsal etmək üçün avadanlıqlar alınaraq quraşdırıldı. Nəhayət, 2005-ci ilin noyabr ayında Ali Məclis Sədrinin iştirakı ilə müəssisənin açılışı oldu.



“Sirab” mineral suyunun şöhrəti haqqında danışmaq ayrıca söhbətin mövzusudur. Ancaq təkcə bir faktı göstərmək lazımdır ki, Naxçıvanın bu məşhur brendi ölkəmizin sərhədlərini çoxdan aşaraq Rusiya, Türkiyə, Gürcüstan, Ukrayna, Qazaxıstan, Latviya, Türkmənistan, İran və digər ölkələrdə tanınır. Bu məqamda sahibkar işə yenilikçi yanaşmağı, istehsalda yeni texnologiyanın tətbiqini, reklam və marketinq tədbirlərinə xəsislik etməməyi öz işinin uğur gətirən amillərindən olduğunu vurğuladı.

“Sahibkarı və təsisçisi olduğum müəssisələrdə kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi və paketlənməsi, biskvit və şokolad istehsalı, ətlik istiqamətdə quş əti istehsalı, lokum istehsalı, “Sirab” əmtəə nişanı ilə qazlı və qazsız su istehsalı uğurla davam etdirilməkdədir. Hal-hazırda, ümumilikdə, bu müəssisələrdə 598 nəfər işlə təmin olunmuşdur”, – deyən Teymur Rzayev bildirdi ki, bu, bir müəssisədə sadə işçidən tutmuş direktora qədər hamının mövcud biznesin uğuru üçün doğma münasibət göstərdiyi böyük bir ailə deməkdir. Özəl sektorun əsas qanunlarından biri də məhz budur. Əgər sahibkar işində diqqətli olsa, maddi resurslara qənaətlə yanaşsa, maliyyə vəsaitlərindən səmərəli istifadə olunmasını təmin etsə, dövlətin dəstəklədiyi real layihələrə üstünlük versə, hökmən öz biznesində uğur qazanacaqdır. Bu həm də sahibkarların muxtar respublika iqtisadiyyatının gücləndirilməsi, onun daha da şaxələndirilməsi istiqamətində daşıdığı bir məsuliyyətdir. Biz bu işə başlayarkən muxtar respublika rəhbərinə güvəndik. Nəticə göz qabağındadır. Sahibkarlığa kiçik istehsal sahəsi ilə başladıq, böyük bir şirkətə çevrildik. Əgər dövlətin dəstəyi, qayğısı olmasaydı, biz bunları bacara bilməzdik.

*Beləcə, sahibkar Teymur Rzayev, əslində, öz biznesinin sirrini bizimlə bölüşmüş oldu. Bu söhbətin sonunda aldığım təəssüratla bərabər, onun da fikrində yeni biznes ideyaları yarandığı açıq sezilirdi. Sabahkı planları üçün nəsə qeyd edəndən sonra sağollaşdıq. Axşamüstü məhəllədəki marketdən aldığım, “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi “Nati” şokoladı ilə çay içməyin isə ayrı ləzzəti var idi.*

# Sığorta müasir hüquqi bazaya əsaslanan xidmət növüdür

***Sığorta əhəmiyyətli xidmət sahəsidir. İqtisadi ədəbiyyatlarda sığorta nisbətən mürəkkəb bir maliyyə xidməti növü kimi də göstərilir.***

Sığorta müasir cəmiyyətin inkişafının tələblərindən biridir. O, mövcud digər iqtisadi münasibətlərə paralel olaraq inkişaf edir, insanların həyat və sağlamlığına, daşınmaz əmlakına, avtomobilinə və ev əmlakına dəymiş zərərlərin əvəzinin ödənilməsinə imkan yaradır. İnsanlar sığorta müqaviləsi bağlayaraq müqavilədə göstərilən gözlənilməz hadisələr baş verdikdə qanunla müəyyən olunmuş məbləğdə sığorta ödənişləri alırlar ki, bu da dəymiş maddi zərərin bərpa olunmasını təmin edir. Sığortanın inkişafı ilə əldə olunan təcrübə göstərir ki, cəmiyyətdə sığortaya olan münasibət geniş maarifçilik tələb edir. Belə ki, təklif olunan risk üzrə sığorta müqaviləsinin bağlanılıb-bağlanılmaması, baş verən hadisələrin sığorta hadisəsi kimi qiymətləndirilməsi baxımından buna çox ehtiyac vardır. Əslində, baş verən hadisələrdən hansının məhz sığorta hadisəsi olduğu sığorta müqaviləsində dəqiq əks olunsa da, vətəndaşlar tərəfindən bəzi hallarda əsası olmayan yanaşmalar bir çox suallar yaradır.

Cəmiyyətimizdə müasir sığorta fəaliyyəti öyrənilməsi və tətbiq olunması baxımından nisbətən yeni sahədir. Sığortanın dünyada inkişaf tarixinə nəzər saldıqda hələ yüz illər öncəsindən Avropada onun hansı zərurətlər nəticəsində yarandığını görmək olar. İnsanların iqtisadi və sosial fəallıqları, sərbəst sahibkarlıq fəaliyyətləri artdıqca gözlənilməz hadisələrin zərərlərinin də məhz sığorta yolu ilə aradan qaldırılmasının əhəmiyyəti görünür. Bu isə cəmiyyətdə növbəti bir məsələnin – sığorta savadlılığının inkişafını ön plana çəkir. Çünki sığorta münasibətləri zamanı yaranan mübahisələr məhz vətəndaşların qanunun tələblərini bilməməsindən irəli gəlir. Bu sahənin yeni olması, vətəndaşların sığorta haqqında biliklərinin azlığı səbəbindən bir çox hallarda ödənilən sığorta ödənişlərinin təyinatı haqqında düzgün olmayan təsəvvürlər formalaşır. Misal üçün, mülki məsuliyyətin icbari sığortalamış avtomobil sahibi kimi qanunun tələblərini yaxşı bilməyən və yol-nəqliyyat hadisəsi zamanı başqasına deyil, öz avtomobilinə dəymiş zərərin əvəzini tələb edən vətəndaşlara hələ də rast gəlinir. Bu gün sığorta müqaviləsi bağlanılan hər bir vətəndaşa izah olunur ki, bu icbari sığorta üzrə onun günahı ucbatından yalnız üçüncü şəxsin əmlakına vurduğu zərər ödənilir. Bu halda vətəndaşın öz avtomobilinə dəymiş zərərin ödənilməsi üçün onun avtomobilinin tam sığortası müqaviləsinin olması əsas şərtdir. Digər bir misal. Daşınmaz əmlakın icbari sığortası zamanı bağlanan müqavilədə əmlaka hansı hallarda dəyə biləcək zərərlərə təminat verildiyi açıq yazılmışdır. Lakin çox rast gəlinən halların təhlili göstərir ki, bəzi vətəndaşlar sığorta hadisələrindən əlavə köhnəlmə, korroziyaya uğrama kimi müqavilədə göstərilməyən hallara görə sığorta ödənişləri tələb edirlər. Məsələn, daşınmaz əmlak güclü sel və qrunt sularının üzə çıxmasından zərər çəkə bilər. Bu zaman yalnız selin vurduğu zərər sığorta müqaviləsinə əsasən ödənilməlidir. Ona görə də qrunt sularına yaxın yerdə daşınmaz əmlak inşa edərkən, eyni zamanda əgər inşa olunmuşsa onu sığorta etdirərkən əmlak sahibi bu barədə sığortaçıya məlumat verməlidir. Çünki baş vermiş hadisənin sığorta hadisəsi kimi qiymətləndirilərək onun nəticəsində əmlaka dəymiş zərərlərin əvəzinin ödənilməsi qanunla müəyyən olunan sığorta hadisələri üçün tətbiq olunur. Qanunda göstərilməyən hallar üçün sığorta ödənişi verilməsi mümkün deyildir. Daşınmaz əmlakın icbari sığortası üzrə cəmi 0,2 faiz hesabı ilə 40 manat ödənilməklə, 20 min manatlıq sığorta ödənişinə təminat verilməsi sığorta hadisəsi olmayan hallar üçün nəzərdə tutulmamışdır.

Naxçıvan Muxtar Respublikasında sığorta işinin genişləndirilməsi və vətəndaşların bu vacib tələbatının ödənilməsi üçün tətbiq olunan qanunlar və həyata keçirilən tədbirlər bu sahənin işinin davamlı olaraq təkmilləşdirilməsi üçün hərtərəfli imkanlar açır. Sığorta fəaliyyətinin günün tələbləri səviyyəsində yenidən təşkil olunması, sığortanın dünyanın bir çox yerlərində tətbiq olunan forma və növlərinin genişləndirilməsi müasir həyatın real şərtlərindəndir. Məhz buna görə də 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirəni xüsusilə qeyd etmək lazımdır. Müşavirədə muxtar respublikada sığortanın inkişafının mövcud vəziyyəti ətraflı müzakirə olunmuş, sığortanın bütün növlərinin inkişafının təmin edilməsi, hüquqi və fiziki şəxslərin xidmətin bu növündən faydalanması üçün geniş izahat-təbliğat işinin aparılması, aidiyyəti orqanlar tərəfindən qanuna müvafiq tədbirlər görülməsi barədə mühüm tapşırıqlar verilmişdir. Həmin müşavirədən sonra muxtar respublikada sığortanın bütün növlərinin inkişafı üçün yeni mərhələ başlanmışdır.

*Sığorta qəfil riskli hadisələr və onların vurduğu maddi zərərlərin ödənilməsi üzərində yaranıb inkişaf edən sahədir. İnsanların riskləri düzgün qiymətləndirməsi onların öz şəxsi can və əmlak təhlükəsizliyi kimi sığortanın da davamlı olmasına mühüm təsir edir. Belə risk doğuran hallar isə həm sığorta agentliyinin mütəxəssisləri, həm də bütün vətəndaşlar tərəfindən düzgün qiymətləndirilməli, qanunlara ciddi əməl olunmalıdır.*

**Səhifəni hazırladı: ✍ Əli CABBAROV**

## Dədəmiz Qorqud demişdir:



*-Nə qədər güclü olsan da, tək əldən səs çıxmaz. El gücü sel gücüdür.*

* * *

*-Qovuşaraq sular daşsa, dəniz olmaz.*

* * *

*-Gül-çiçəkli göycə çəmən payıza qalmaz.*

* * *

*-Torpağın yurd, Vətən olması üçün iki şərt lazımdır: biri odur ki, torpağı gərək əkib-becərəsən, o birisi odur ki, torpağı gərək yağılardan qoruyasan. Əgər torpağı əkib-becərmədin, qorumağa dəyməz. Torpağı qoruya bilmədin, əkib-becərməyə dəyməz.*

## *Naxçıvan* tarixən torpaqlarının qorunduğu və əkilib-becərildiyi qədim *Oğuz yurdudur*

*"Kitabi-Dədə Qorqud" oğuzların dastana çevrilmiş tarixidir. Dastanda hər sözün, hər kəlmənin dərin mənası var. Və bu mənanın arxasında tariximiz, mədəniyyətimiz, dəyərlərimiz durur. Oğuzlar üçün ən böyük dəyər Vətən, torpaq sevgisidir. Dastandakı torpağın qorunması, əkilib-becərilməsi ilə bağlı fikirlər yaşı qədimdən qədim olan Naxçıvanın sakinləri üçün keçmişdən bu günümüzədək yaşayan həyat fəlsəfəsi olub. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu ulu diyar tarix boyu bir çox çətinliklərlə qarşılaşıb, yağı düşmənlə mübarizə aparıb. Ancaq bütün dövrlərdə ayaqda durmağı bacararaq öz torpağını güzəştə getməyib.*

Yerləşdiyi geostrateji mövqeyinə görə daim başqalarının maraq dairəsində olan ərazicə kiçik, mənəviyyatca böyük Naxçıvan ən böyük imtahanı, həm də ötən əsrin sonlarında verməli olub. Azərbaycanın dövlətçilik tarixində mühüm yerə malik olan Naxçıvanın torpaqlarının müdafiəsi həmin dövrdə daha da aktuallaşıb. Mənfur ermənilər öz çirkin planlarını həyata keçirmək üçün bütün gücü ilə Naxçıvana hücumlar təşkil ediblər. Düşmənlə müqayisədə böyük fərq olsa da, bu diyarın qəhrəman oğullarının sayəsində bütün hücumların qarşısı mərdliklə alınıb. Bu qeyri-bərabər döyüşlərdə xeyli şəhid verilib, yüzlərlə döyüşçü yaralanıb, ancaq Naxçıvanın torpaqları düşmən əlinə keçməyib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin həmin dövrdə Naxçıvanda xalqı ilə bir yerdə olmağı Naxçıvanı düşmən qarşısında alınmaz qalaya çevirib. Məhz həmin illərdə Naxçıvanda müstəqil Azərbaycanın ilk milli ordusu yaradılıb. Ötən illər ərzində bu ordu daim inkişaf edərək dövlətimizin maddi və mənəvi dəstəyi ilə daha da güclənib. Belə ki, muxtar respublikanın düşmənlə bütün sərhəd məntəqələrində zabit və əsgərlərimiz üçün hərtərəfli şərait yaradılıb. Ölkə başçısı cənab İlham Əliyevin qayğısı sayəsində Naxçıvandakı hərbi hissələrin maddi-texniki bazası yenilənib, ən müasir hərbi texnikalar buradakı hərbi birləşmələrin sərəncamına verilib. İndi Azərbaycanın bu qədim diyarındakı peşəkar ordu Naxçıvanı istənilən xarici qüvvələrin təhdidindən qorumaqla yanaşı, istənilən hücum əməliyyatını da həyata keçirməyə qadirdir.

Təbii ki, torpaq qorunursa, onun insan həyatında iqtisadi faydası da öz qiymətini alır. Naxçıvan tarixən aqrar region olub. Asiyanı Avropa ilə bağlayan Böyük İpək Yolunun buradan keçməsi regionda ticarətin, kənd təsərrüfatının inkişaf etdirilməsinə imkan verib. Eyni zamanda muxtar respublikanın əlverişli iqlimi bu torpaqlarda, demək olar ki, bütün əkin növləri üçün şərait yaradıb. Tarixin uzaq dövrlərindən burada yaşayan əhali taxılçılığa, üzümçülüyə, bostan bitkilərinin əkilməsinə maraq göstərib. Həmçinin meyvəçilik Naxçıvanda diqqət göstərilən əsas sahələrdən olub. Təbiətin lütfüdür ki, bu torpaqlarda yetişən meyvələr, bostan və tərəvəz məhsulları öz dad-tamı ilə seçilir. Bəlkə də, buna görədir ki, muxtar respublikanın bölgələrində yetişdirilən meyvələr müxtəlif dövrlərdə təşkil olunmuş festivallarda, kənd təsərrüfatı məhsulları sərgilərində layiqli yer tutub, diplom və fəxri fərmanlarla mükafatlandırılıb.

Kökdən gələn təsərrüfatçılıq ənənələri bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Son 20 il ərzində muxtar respublikada aqrar sahənin inkişaf etdirilməsi, torpaq mülkiyyətçilərinin problemlərinin həll edilməsi yolunda atılan qəti addımlar qorunan torpağın əkilməsinə dövlət marağını özündə bir daha əks etdirir. 2015-ci ilin ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunması isə təsərrüfata, torpağa münasibətin ən yüksək ifadəsidir.

İndi müstəqilliyimizin ilk illərindən fərqli olaraq, Naxçıvanda əkinçi öz işi ilə məşğuldur. Torpaqlar əkilir, ərzaq məhsullarına olan tələbatımız daxili imkanlar hesabına ödənilir. Torpaqların əkilməsi, təsərrüfatın müxtəlif sahələrinin inkişaf etdirilməsi həm də dövlətimizin iqtisadi gücünün göstəricisidir. Nəticədə qazanan yenə bu torpağın insanları olur. Naxçıvan bu gün millət kimi mədəni mövcudluğumuzun, milli və mənəvi dəyərlərimizin, özünə inamın ən böyük və müqəddəs toplusu sayılan "Kitabi-Dədə Qorqud" dastanındakı "torpağı qorumağın və əkməyin" yolunu inamla davam etdirən qədim Oğuz yurdudur.

Səbuhi HƏSƏNOV

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin oktyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 248902 | 24890 | 25096 | 100,8 |
| 2. | Kəngərli rayonu | 264989 | 26499 | 26713 | 100,8 |
| 3. | Ordubad rayonu | 495050 | 49505 | 49725 | 100,4 |
| 4. | Naxçıvan şəhəri | 1526253 | 152625 | 153179 | 100,4 |
| 5. | Sədərək rayonu | 99381 | 9938 | 9968 | 100,3 |
| 6. | Şərur rayonu | 699652 | 69965 | 70102 | 100,2 |
| 7. | Culfa rayonu | 380659 | 38066 | 38119 | 100,1 |
| 8. | Babək rayonu | 683121 | 68312 | 68374 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 2498409 | 249762 | 231900 | 92,8 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | **6896416** | **689562** | **673176** | **97,6** |

*Xəbər verdiyimiz kimi, noyabrın 4-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində xalq yaradıcılığı sərgisinin açılışı oldu.*

## Naxçıvanqalada keçirilən xalq yaradıcılığı sərgisinə böyük maraq göstərilib



Milli dəyərlərimizin qorunması və yaşadılmasında mühüm əhəmiyyəti olan tədbirin ikinci günü muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbə və müəllimləri, ümumtəhsil məktəblərinin şagirdləri, sahibkarlar, müxtəlif idarə və təşkilatların, ictimaiyyətin nümayəndələri sərgiyə böyük maraq göstərdilər.

37 el sənətkarı tərəfindən oyma, xəttatlıq, dulusçuluq, papaqçılıq, xalçaçılıq, misgərlik, toxuma, ağac üzərində yandırma, bədii tikmə və digər xalq sənətkarlığı sahələri üzrə 600-ə yaxın əl işi, rəsm əsərləri, məktəbdənkənar tərbiyə müəssisələrinin müəllim və şagirdləri tərəfindən hazırlanan 120 bədii tikmə və toxuma nümunələri, sağlamlıq imkanları məhdud şəxslərin və qadınların əl işlərinin çıxarıldığı sərginin ikinci günü gələnlərin ən çox diqqətini çəkən sağlamlıq imkanları məhdud şəxslərin əl işləri, müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri oldu. "Naxçıvan" Universitetinin tələbələri Təranə Əliyeva və Elnur Müseyibovla söhbətimiz də elə sağlamlıq imkanları məhdud şəxslərin əl işləri və rəsm əsərləri ilə tanışlıq əsnasında oldu. Müsahiblərim dedilər ki, onları burada nümayiş etdirilən nümunələr çox heyrətləndirib. Bəzən elə hallar olur ki, kiçik bir başağrısı üzündən insanlar öz işlərini təxirə salırlar. Ancaq burada nümayiş etdirilən əl işləri və rəsm əsərləri bir daha sübut edir ki, işləmək, nəsə yaratmaq üçün fiziki məhdudiyyət sərhəd, əngəl ola bilməz.

Müasir görünmək istəyi müxtəlif nümunələr kimi, milli ornamentləri olan aksesuarların, bəzək əşyalarının da gündəlik həyatdan, məişətimizdən uzaqlaşmasına gətirib çıxarır. Buna baxmayaraq, sevindirici haldır ki, bir çox sənətkarlar milliliyi qoruyub saxlamağa can atırlar. Təbiqi incəsənətlə məşğul olan el sənətkarı Xuraman Səfərova ilə sərgidə tanış olduq. Onun üçün ayrılan guşədə nümayiş etdirilən əl işlərində məhz milliliyi duymaq, hiss etmək çətin deyildi. Yaratdığı gözəlliyə tamaşa etmək üçün guşənin qarşısında qələbəlik idi. Xuraman xanım dedi ki, müxtəlif bəzək əşyaları, boyunbağıları düzəltməyə elə uşaq yaşlarından başlayıb. Bəzək əşyalarını düzəldərkən də milli xalçalarımızın naxış və rənglərindən istifadə edir. Bunları düzəldərkən firuzəyi rəngli muncuqlara, daşlara üstünlük versə də, bəzəklər arasında yaşıl, qırmızı, sarı rənglər də yer alır.

Müsahibim onu da dedi ki, artıq yeddinci ildir, müxtəlif sərgilərdə iştirak edir. Bu sərginin əsərlərini daha da təkmilləşdirmək, yaradıcılığını mükəmməlləşdirmək üçün çox xeyri olub. Sərgidə nümayiş olunacaq deyə, əl işlərini daha həvəslə və sürətlə hazırlayıb, sərgiyə imtahan kimi hazırlaşıb.

Sərgidə "Hilal" Ət və Ət Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Fikrət Əliyarovla həmsöhbət olduq. Fikrət Əliyarov dedi ki, əl işlərinin düzəldilməsinin diqqət və həvəs tələb etdiyini yaxşı bilir, sənətkarların əl işlərindən bir neçəsini satın almaqla onlara maddi cəhətdən dəstək olacağını düşünür. Onun üçün də səhər saatlarından yolunu sərgidən salıb.

Sahibkar onu da bildirdi ki, bəzi insanlar xarici ölkələrdə hədiyyəlik əşyalara çox miqdarda vəsait xərcləyir, keyfiyyəti və estetik gözəlliyi ilə bu əşyalardan qat-qat qiymətli olan yerli ustaların məhsullarına isə soyuq yanaşırlar. Məncə, bu qəbuledilməzdir. Təbii ki, dövlətimiz el sənətkarlarını hər cür diqqət və qayğı ilə əhatə edib. Ancaq biz də bu sənətkarlara maddi və mənəvi dəstək olmalıyıq.

Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi Samirə Mustafayeva isə bildirdi ki, əgər milli dəyərlərimizə üstünlük veririksə, el sənətkarlarının əl işlərindən istifadə etməliyik. Əgər Naxçıvanda yüksək səviyyəli müxtəlif cür bəzək əşyaları, ev aksesuarları, dekorativ-tətbiqi sənət nümunələri varsa, bunlar gündəlik həyatımızda, məişətimizdə yer almalıdır. Qərara almışam ki, buradan aldığım milli üslubda hazırlanan boyunbağılardan və başqa zinət əşyalarından tez-tez istifadə edim, haradan aldığımı soruşanda bu boyunbağıların yerli ustalar tərəfindən düzəldildiyini deyim. Dünən sərginin açılış mərasimində bildirildi ki, milli geyimlərin əsas cəhətlərindən biri də baş örtükləridir. Çalma, araqçın, rübənd, şal və kələğayı kimi baş örtükləri Azərbaycan qadınının ismət və sədaqət nişanəsi kimi yüksək mənəvi dəyərə malikdir. Mənəvi dəyərə malik olan bu baş geyimlərindən gündəlik məişətimizdə nəyə görə istifadə etməməliyik?

***Bəli, sərginin ikinci günü biz də burada nümayiş etdirilən əl işləri ilə tanış olduq, el sənətkarlarının, sərgiyə gələnlərin fikirlərini öyrəndik. Bu söhbətlər zamanı belə bir fikir ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında 2009-cu il 7 fevral tarixli Sərəncamı, 2012-ci ilin Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" elan edilməsi milli dəyərlərimizin yaşadılması istiqamətində atılan mühüm addımdır. Bütün bu görülən işlər, ən nəhayətində, milli mirasımızın gələcək nəsillərə çatdırılmasına xidmət edir.***

Səbuhi HÜSEYNOV

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 839